Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad rayonlarımızda yaşayanların sayı 50 minə çatdı...

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Azərbaycan işğaldan azad edilmiş ərazilərə qayıdışla bağlı böyük addımlar atır. Bu istiqamətdə görülən işlər nəticəsində 30 ilə yaxın yurd həsrəti çəkən insanlar öz doğma torpaqlarına, evlərinə qayıdır. Bu prosesin - Böyük Qayıdışın təməli hələ 2016-cı ildə, Aprel döyüşlərindən sonra qoyulub.**



Həmin vaxtdan başlayaraq Böyük Qayıdış prosesinə start verilməsini xüsusi qeyd etmək olar. Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci ildə imzaladığı Sərəncama uyğun olaraq Böyük Qayıdış prosesinə start verildi. 2020-ci ildə Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmizdən dərhal sonra işğal dövründə Ermənistan tərəfindən vandallığa məruz qalan doğma ərazilərimizdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə başlanıldı.

**Bugünə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlər qayıdıb**

Bu arada Prezident İlham Əliyev Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündəki çıxışında deyib: "İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. "Böyük Qayıdış" Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır". Yeni layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub.

**Bu, sadəcə fiziki bərpa deyil, bu, milli ruhun qürurlu təntənəsidir**

"Böyük Qayıdış" prosesini "Bakı-Xəbər"ə şərh edən Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalının fikrincə, tarixin gedişatında bəzi anlar var ki, ictimai-siyasi məzmununun fövqündə həm də mənəvi-mədəni varlığın təntənəsinə çevrilir: "Prezident İlham Əliyevin Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) 17-ci Zirvə görüşündə etdiyi çıxış da məhz belə idi - bir dönəmin yekunu, yeni dönəmin başlanğıcını ifadə edən bir tarixi çıxış. Necə deyərlər, yalnız tarix kimi yazılmaq üçün deyil, yaşanmaq və yaşadılmaq üçün - gələcəyin vicdanına ünvanlanan çıxış. Bu vurğular, nidalar qətiyyən bəlağət deyil, doğrudan-doğruya, Xankəndidən deyilən söz, yalnız diplomatik yox, həm də ulusun könlündən süzülüb gələn həqiqətin, haqqın, ruhi gücün bəyanı idi.

Prezident bildirdi: "İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. "Böyük Qayıdış" Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır".

Bax, bu açıqlama, şəhidlərin ruhuna ünvanlanmış vəfa andıdır; bu, milyonların həsrətinə çevrilmiş torpaqların səsinə, arzusuna verilən cavabdır; bu, dünən didərgin salınan el-obanın bu gün dim-dik ayaqda olduğunun parlaq sübutudur. "Böyük Qayıdış" ifadəsi artıq proqram adı olmaqdan daha üstün anlamlar ifadə edir; o, Azərbaycanın - belə demək olarsa, dirçəliş fəlsəfəsinə çevrilmiş bir milli paroldur. Əgər dünən biz torpaqları azad etməklə tarixə imza atmışdıqsa, bu gün həmin torpaqları abad etməklə gələcəyi inşa edirik. Minalanmış düzlərdə məktəblər yüksəlir, dağıdılmış kəndlərdə işıq yanır, viran qoyulmuş şəhərlərimizdə körpə qəhqəhəsi səslənir. Bu, sadəcə fiziki bərpa deyil, bu, milli ruhun qürurlu təntənəsidir".

**İnsan torpağa qayıtdıqca, torpaq da insana qayıdır, su da səsə gəlir, ağac da barını kimə verəcəyini bilir...**

Ə.Qoşalı hesab edir ki, Prezidentin nitqində keçən "50 mindən çox insan yaşayır, çalışır və təhsil alır" məlumatı bir statistika deyil: "Bu, əslində qürurlu irəliləyişin parametridir. Əgər bu gün Füzulidə, Cəbrayılda, Zəngilanda, Laçında, Ağdamda və b. yerlərdə uşaqlar məktəbə gedirsə, qadınlar evlərdə səliqə-səhman yaradırsa, kişilər torpaq şumlayır, ot çalır, bulağın gözünü açırsa… - bu, artıq yalnız torpaqların deyil, ulusal taleyin də bəngü qayıdışıdır. Bu dirçəliş prosesində əsas qayə yalnız fiziki abadlıq olmur - bu, bir növ mədəni-mənəvi reabilitasiyadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələr təkcə infrastrukturu deyil, cəmiyyət yaddaşını da bərpa edir. İnsan torpağa qayıtdıqca, torpaq da insana qayıdır, su da səsə gəlir, ağac da barını kimə verəcəyini bilir... Bu qarşılıqlı qovuşma bir ulusun yenidən doğuluşuna, yeni yaşamına çevrilir. Bəli, İƏT Zirvə Toplantısının məhz Xankəndidə keçirilməsi, təkcə Azərbaycanın diplomatik uğuru olmadı - o, Türk-İslam coğrafiyasının Qarabağ mövzusunda yekdil mövqeyinin rəsmi təsdiqidir. İƏT-in bütün üzv dövlətləri Qarabağın barış və dirçəliş ocağına çevrilməsini dəstəkləyir. Bu, eyni zamanda, Ermənistana, eləcə də onun havadarlarına ismarıcdır: "İşğal dönəmi bitdi. Artıq bura dirçəliş, inkişaf və barışın paytaxtıdır"! Prezidentin vurğuladığı kimi, "Böyük Qayıdış" Azərbaycanın 2030-cu ilə qədər olan beş Milli Prioritetindən biri kimi təsbit olunub. Yəni, təkcə Qarabağ və Gündoğar Zəngəzurun deyil, bütün Azərbaycanın gələcəyi bu strateji istiqamətin uğuruna bağlıdır. Əgər bir vaxtlar bu torpaqlar qanla alınıbsa, indi alın təri ilə bərpa olunur. Azərbaycan modeli məhz budur - döyüşdə cəsarət, quruculuqda zəhmət, siyasətdə dəyanət.

Əgər bu gün bəşəriyyət postmüharibə psixozu ilə baş çıxara bilmirsə, Azərbaycan postmüharibə dönəminin təhlükəsizlik, humanizm və inkişaf üçlüyündə necə idarə olunacağını göstərən örnək təqdim edir. Qarabağda işıq yanır. Bu işıq yalnız transformatorun, generatorun işığı deyil. Bu, xatirənin, inamın, ruhun işığıdır. Prezident İlham Əliyevin Xankəndidə səsləndirdiyi sözlər bu işığın yönünü, yolunu, amacını ifadə edir.

Xankəndidən səslənən bu sözlər təkcə Azərbaycanın deyil, bütün Türk-İslam coğrafiyasının, haqlı və haqsızın nə olduğunu axtaran dünyanın yaddaşına yazılır.

Çünki bu səsin adı - Böyük Qayıdışdır!".

***Vidadi ORDAHALLI***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**